www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-05 (1788) 15 mart 2024-cü il





## Akademik göstəriciləri yüksək olan 19 tələbə dövlət hesabına təhsil alacaq

Rektor, professor Gəray Gəraybəyli: Bu addım gənclərin ailələrinə dəstək və onların inkişafı üçün stimuldur

səh. 2

## Rektor universitetdə yeni fəaliyyətə başlayan kafedraya baş çəkib

səh. 2

## Tələbələrimiz “Avropa Bilik Yarışı”nın qalibi olub

səh. 5

## Novruz bayramı günlərində qidalanmaya nəzarət etmək vacibdir

səh. 7



## Payız semestrinin imtahan sessiyasının yekunları müzakirə olunub

Bəzi kafedraların test bazasını yeniləməməsi Elmi Şurada tənqid edilib

səh. 3

## Tələbə Elmi Cəmiyyəti öz jurnalını və saytını təqdim edib

səh.4

## İnsan bədəni 40 trilyon “elektrik batareyası”ndan ibarətdir

*Dosent Nəzakət Kərimli: Yaxın gələcəkdə biolektrik kodun qırılması çox ciddi elmi məsələlərdən biridir*

səh. 7



## Həmkarlar İttifaqı Komitəsinin hesabat-seçki konfransı keçirilib

Ötən 7 ildə görülmüş işlər yüksək qiymətləndirilib, dosent Cahangir Qasımov yenidən HİK-in sədri seçilib

səh. 2

# Akademik göstəriciləri yüksək olan 19 tələbə dövlət hesabına təhsil alacaq

## Rektor Gəray Gəraybəyli: Bu addım gənclərin ailələrinə dəstək və onların inkişafı üçün stimuldur



**Artıq bir neçə ildir ki, Azərbaycan Tibb Universitetində ödənişli əsaslarla təhsil alan tələbələrdən yüksək göstəricisi olanların dövlət hesabına təhsilə keçidi təmin olunur. Bu dəfə müxtəlif kurs və fakültələrin ümumilikdə 19 tələbəsi bu şansı qazanıb.**

ATU-nun rektoru, professor Gəray Gəraybəyli həmin tələbələrlə görüşündə onları və valideynlərini təbrik edib Bu addımın həm tələbələrin ailələrinə dəstək, həm də gənclərin təhsil səviyyəsinin yüksəldilməsi, inkişafı üçün müəyyən stimul olduğunu bildirib. Çünki yalnız il ərzində akademik göstəriciləri yüksək olan tələbələr bu imkanı qazanır və onlar öz zəhmətinin dəyərini hiss etmiş olurlar. G.Gəraybəyli bu təşəbbüsün gerçəkləşməsində Dövlət İmtahan Mərkəzinin xüsusi rolunu vurğulayıb. O, ATU tələbələri arasında Təhsil Krediti Fondunun imkanlardan yararlanan gənclərin olduğunu da xatırladaraq, gələcəkdə bu cür təşəbbüslərin artırılması istiqamətində bir sıra işlərin görüləcəyini bildirib.

Görüşdə ATU-nun Tədris departamentinin rəhbəri, dosent Kamandar Yaqubov keçid proseduru haqqında danışaraq qeyd edib ki, dövlət hesabına plan yerləri boşaldıqca, ödənişli təhsil alan və akademik göstəriciləri yüksək olan tələbələri ora keçirmək imkanı yaranır. Bu zaman təhsil illərində tələbələrin topladığı ballar nəzərə alınır. K.Yaqubov ATU-nun 7 mindən çox tələbəsi olduğunu, universitetin xarici tələbə sayına görə ölkədə ilk yerdə dayandığını da bildirib.

Qeyd edək ki, 9 nəfər II kurs, 1 nəfər III kurs, 4 nəfər IV kurs və 5 nəfər V kursdan olmaqla, I və II Müalicə-profilaktika, İctimai səhiyyə və Stomatologiya fakültələrinin 19 tələbəsi dövlət hesabına təhsilə keçirilib.

**Günel ASLANOVA**




# Rektor universitetdə yeni fəaliyyətə başlayan kafedraya baş çəkib

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli universitetdə yeni fəaliyyətə başlayan Ortodontiya kafedrasına baş çəkib.**

Rektor ATU-nun Tədris Stomatoloji Klinikasında yerləşən bu kafedranın əməkdaşları və rezident-həkimlərlə görüşüb, kafedrada tədris üçün yaradılmış şəraitlə tanış olub, dərs prosesinin gedişini izləyib.

Professor G.Gəraybəyli klinika və kafedra rəhbərliyi ilə görüşdə bu yeniliyin ortodontiya sahəsində ətraflı tədqiqat aparmaq istəyən gənclər üçün yeni imkanlar yaradacağını bildirib və onlara uğurlar diləyib. Rektor kafedrada yaradılmış şəraiti yüksək qiymətləndirərək, müvafiq tövsiyə və tapşırıqlarını verib.

Ortodontiya kafedrasının müdiri, dosent Ramidə Şadlinskaya hazırda 12 rezidentin klinik və tədqiqat proqramlarında iştirak etdiyini söyləyib. Rezidentlər üçün həm kafedranın əməkdaşları tərəfindən, həm də dəvət olunan mütəxəssislər tərəfindən mütəmadi mühazirə saatlarının təşkil olunduğu vurğulanıb.

Tədris Stomatoloji Klinikanın direktoru Mahir Səfərov yeni kafedranın yüksək standartlara uyğun tədris prosesinin təşkili üçün zəruri olan avadanlıqlarla tam təchiz edildiyini, burada peşəkar professor-müəllim heyətinin fəaliyyət göstərdiyini diqqətə çatdırıb. M.Səfərov Klinikanın fəaliyyətində tətbiq edilən müasir təhsil metodları, yeniliklər barədə də rektoru məlumatlandırıb, həyata keçirilən islahatların tələbələrin bilik və bacarıqlarının artırılmasına yönəldiyini bildirib.

Qeyd edək ki, ortodontiya - stomatologiyanın diş-çənə anomaliyalarının etiologiyası, patogenezi, diaqnostikası və müalicə üsullarının xüsusiyyətlərini öyrənən bir sahədir. Ötən əsrin 70-ci illərinə kimi ölkəmizdə ortodontiya fənni tədris olunmayıb.

# ATU Həmkarlar İttifaqı Komitəsinin hesabat-seçki konfransı keçirilib

## Ötən 7 ildə görülmüş işlər yüksək qiymətləndirilib, dosent Cahangir Qasımov yenidən HİK-in sədri seçilib



**Martın 5-də Azərbaycan Tibb Universiteti Həmkarlar İttifaqı Komitəsinin XIV hesabat-seçki konfransı keçirilib. Əvvəlcə Dövlət Himnimiz səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad olunub. Sonra ATU Həmkarlar İttifaqı Komitəsinin (HİK) 2017-2024-cü illərdəki fəaliyyətinə dair hesabat dinlənilib.**

ATU HİK-in sədri, dosent Cahangir Qasımov çıxış edərək, son 7 il ərzində komitə tərəfindən görülən işlər haqqında danışıb. Bildirib ki, HİK-in XIV hesabat-seçki konfransı çox əlamətdar bir zamanda keçirilir: "Otuz il düşmən tapdağında olan torpaqlarımızın qaytarılmasına xalqımızın həmişə böyük ümidi və inamı vardı. Ulu Öndərin yaratdığı bu inam, qəhrəman ordumuzun döyüşkənlik ruhu və Müzəffər Ali Baş Komandanın qətiyyətli addımı ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük bir hissəsi düşmən tapdağından azad edildi və tarixə 8 noyabr - Zəfər Günü kimi yazıldı. 2023-cü il sentyabr ayının 19-dan 20-nə keçən gecə isə antiterror əməliyyatı dövlət suverenliyimizin tam bərpa olunması ilə nəticələndi və İlham Əliyev cənabları Xankəndi şəhərində üçrəngli bayrağımızı ucaltdı. Bundan ruhlanan qədirbilən xalqımız bu il fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində yenidən Müzəffər Ali Baş Komandan İlham Əliyevə səs verdi".

Sözünə davam edən C.Qasımov vurğulayıb ki, ATU-nun Həmkarlar İttifaqı Komitəsi rektorluqla öz münasibətini müvafiq qanunlara və Əmək Məcəlləsinə dair bağlanan kollektiv müqavilə əsasında qurub: "AHİK və Nazirlər Kabineti arasında bağlanan baş saziş və Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi ilə Səhiyyə Nazirliyi arasında bağlanmış sahə sazişinin şərtləri əsasında bağlanan bu müqavilədə əməkdaşlarımızın sosial-iqtisadi problemlərinin həlli, məzuniyyətlər, qadınların əməyi və digər sahələrdə əlavə imtiyazlar nəzərdə tutulur".

Məruzəçi fəaliyyət dövrü ərzində HİK tərəfindən kollektivin sosial müdafiəsinin gücləndirilməsi, əməkdaşların asudə vaxtlarının səmərəli keçirilməsi və mədəni-kütləvi tədbirlərdə iştirakın, eyni zamanda "Təbib" istirahət düşərgəsində əməkdaşların yay istirahətinin təşkilindən danışıb.

O, son yeddi ildə universitetin xüsusi vəsaitləri hesabına əməkdaşlara verilən əlavə əməkhaqqının bir neçə dəfə artırıldığını, bütövlükdə bu illər ərzində 1328 nəfər əməkdaşa 173 000 manat həcmində maddi yardım göstərildiyini bildirib: "44 günlük Vətən müharibəsində də komitə öz köməkliyini əsirgəməmişdir. Belə ki, Azərbaycan Silahlı Qüvvələrinə Yardım Fonduna HİK-in büdcəsindən 2000 manat vəsait köçürülmüşdür. O cümlədən Tədris Cərrahiyyə və Tədris Terapevtik Klinikalarında müalicə alan qazilərimizin ərzaq təminatını daha da yaxşılaşdırmaq məqsədi ilə 7 gün müddətində 5000 manat məbləğində ərzaq yardımı göstərilmişdir. Bundan əlavə, Zəfər Günü münasibəti ilə Həmkarlar İttifaqı Komitəsi tərəfindən şəhid ailələrinin hər birinə 300 manat, 9 nəfər Vətən müharibəsi iştirakçısının hər birinə isə 100 manat məbləğində pul mükafatları verilmişdir. Onu da bildirmək istəyirəm ki, I Qarabağ döyüşlərində şəhid olmuş üç əməkdaşımızın həyat yoldaşı və ya övladını, Vətən müharibəsində isə övladı şəhid olmuş üç əməkdaşımızı, yəni altı şəhid ailəsini HİK öz himayəsinə götürüb. Ayrılan həmin yardımlar komitənin xərclər smetasına daxil edilib və onlar bu yardımı mütəmadi ala bilirlər".

Bundan sonra Təftiş Komissiyasının sədri, dosent Vüqar Cavadzadə illər üzrə aparılan hesabatların nəticələri ilə konfrans iştirakçılarını tanış edib.

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının məsləhətçi professoru Vaqif Şadlinski, Epidemiologiya və biostatistika kafedrasının müdiri, professor İbadulla Ağayev, Sitologiya, embriologiya və histologiya kafedrasının müdiri, professor Eldar Qasımov və Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı gigiyenası kafedrasının müdiri, dosent Şəhla Balayeva öz çıxışlarında hesabatı müsbət qiymətləndirərək, C.Qasımovun təşkilata sədrlik etdiyi illər ərzində təşkilatın nümunəvi fəaliyyəti, işçilərin sosial müdafiəsinin təşkilində prinsipial mövqeyi, bir çox layihələrdə təşəbbüskarlığını xüsusi qeyd ediblər. Qurumun nümunəvi təşkilatçı kimi fəaliyyət göstərməsi, işçilərin əməyinin qiymətləndirilməsi, onların asudə vaxtı və istirahətinin təşkili, ölkəmiz üçün əhəmiyyətli olan məsələlərdə gördüyü mühüm işlər vurğulanıb və C.Qasımovun yenidən sədrliyə namizədliyinin irəli sürülməsi təklif edilib.

Konfransda çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli Həmkarlar İttifaqı Komitəsinin uzun illərdən bəri universitetin həyatında aparıcı bir təşkilat kimi fəaliyyətini yüksək qiymətləndirib. Rektor vurğulayıb ki, vaxtilə bu quruma rəhbərlik etmiş professor Vaqif Şadlinski və mərhum professor Surxay Musayevin yaratdığı gözəl ənənələri bu gün də dosent Cahangir Qasımov layiqincə davam etdirir. O bildirib ki, universitetdə nizam-intizamın yaradılmasında, eləcə də bir sıra vacib məsələlərin həll edilməsində komitənin köməyi yaxından hiss edilir: "Mən də hesab edirəm ki, komitənin universitetimizdə müsbət istiqamətdə gördüyü işlər çoxdur və yeni tərkibdə seçilən heyət bundan sonra da qarşıda duran bir çox məsələlərin həllində rəhbərliyin yanında olacaq. Komitə tərəfindən əməkdaşların hüquqlarının müdafiə edilməsi, eləcə də onların "Təbib" istirahət düşərgəsində dincəlməsi, həmçinin tələbələrin vaxtlarını səmərəli keçirmələri üçün yaradılan şərait hamının diqqət mərkəzindədir. Əlbəttə, bütün bu görülən işlər Tibb Universitetini irəliyə aparmaq və onu daha da yüksəklərə qaldırmaq üçündür. Bütün bu vəzifələrin həyata keçirilməsində bir daha yeni seçiləcək heyətə uğurlar, möhkəm cansağlığı diləyirəm. Sizin hər birinizi isə qarşıdan gələn Novruz Bayramı münasibətilə təbrik edir, doğma universitetimizin tərəqqisi naminə fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram".

Konfransda çıxış edən Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Komitəsinin sədri Arif Mərdanov ATU-nun Həmkarlar İttifaqı Komitəsinin hesabatını yüksək dəyərləndirib və gələcəkdə qarşıda duran vəzifələrin həyata keçirilməsində yeni seçiləcək heyətə uğurlar arzulayıb.

Konfransın sonunda universitetin Həmkarlar İttifaqı Komitəsinə 25, onun Təftiş Komissiyasına isə 5 nəfərlik yeni tərkib seçilib. Qulaq, burun-boğaz xəstəlikləri kafedrasının dosenti Cahangir Qasımov yekdilliklə ATU-nun Həmkarlar İttifaqı Komitəsinə yenidən sədr seçilib.

Qeyd edək ki, 2017-2024-cü illər ərzində ATU-nun Həmkarlar İttifaqı Komitəsi yeni klinikaların açılması ilə əlaqədar öz sıralarını daha da genişləndirib. Bu gün ATU HİK 4450-dən çox həmkarlar ittifaqı üzvünü özündə birləşdirən ən böyük ali məktəb təşkilatlarından biridir. Hazırda universitetin Həmkarlar İttifaqı Komitəsinin rəhbərliyi altında 6 fakültə, 4 klinika, 1 Elmi-Tədqiqat Mərkəzi və 1 İnzibati-təsərrüfat işçiləri həmkarlar ittifaqı təşkilatı, 58 qrup təşkilatı fəaliyyət göstərir.

**M.ƏLƏKBƏRLİ**

**ATU-nun Böyük Elmi Şurasının növbəti iclası martın 7-də keçirilib. İclası universitetin rektoru, professor Gəray Gəraybəyli açaraq öncə Ailə təbabəti kafedrasının müdiri, professor İbrahim İsayevi 70 illik yubileyi münasibətilə təbrik edib. Rektor onun elmi və pedaqoji, peşəkar tibbi kadrların hazırlanması istiqamətində səmərəli fəaliyyətini yüksək qiymətləndirib.**

# Payız semestrinin imtahan sessiyasının yekunları müzakirə olunub

## Bəzi kafedraların test bazasını yeniləməməsi Elmi Şurada tənqid edilib

Bundan sonra gündəlikdəki məsələlər diqqətə çatdırılıb. Tədris və müalicə işləri üzrə prorektor, professor Sabir Əliyevin "Azərbaycan Tibb Universitetində 2023/2024-cü tədris ilinin payız semestrinin imtahan sessiyasının yekunları və yaz semestrində tədris prosesinin daha da yaxşılaşdırılması işində universitet kollektivinin vəzifələri" adlı hesabatı dinlənilib. Əvvəlcə Azərbaycan Tibb Universitetinin 2023-2030-cu illər üçün inkişaf strategiyasının müəyyənləşdirildiyini xatırladan prorektor bildirib ki, strateji plan növbəti yeddi il ərzində ATU-nu Azərbaycanda tibb təhsili ilə yanaşı, elmi tədqiqatlar və səhiyyə xidmətləri sahəsində lider mövqeyə çıxarmaq məqsədi daşıyır.

Eyni zamanda İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin 2023-2024-cü tədris ili üçün fəaliyyət planının tərtib və təsdiq edildiyini, yeni tədris ilinin ikinci yarısından universitetdə "Ortodontiya" adlı kafedranın təşkil olunduğunu və artıq fəaliyyətə başladığını söyləyən S.Əliyev əsas diqqəti cari tədris ilinin payız semestrinin imtahan sessiyasının nəticələrinə yönəldib: "İmtahan sessiyasını 6390 nəfər tələbə müvəffəqiyyətlə başa vurub. Onlardan 948 nəfər (14.8%) sessiyanı "əla" qiymətlərlə, 3165 nəfər (49.53%) "əla" və "yaxşı" qiymətlərlə, 2277 nəfər (35.63%) qarışıq qiymətlərlə bitirib. Sessiyanın nəticələrinə görə, 384 nəfər (5.6%) tələbənin, o cümlədən 243 nəfərin yalnız 1 fəndən, 68 nəfərin 2 fəndən, 73 nəfərin isə 3 fəndən akademik borcu qalıb. Universitet üzrə mütləq mənimsəmə göstəricisi 94.33% (keçən il 93.23%), keyfiyyət göstəricisi isə 60.71% (keçən il 61.11%) olub".

Çıxışı zamanı I-II-III kurslarda tədrisin keyfiyyətinə diqqətin artırılması və testlərin daha düzgün tərtib edilməsi ilə bağlı nəticələrin əksər kafedralarda obyektiv və ədalətli olduğunu deyən məruzəçi təəssüflə qeyd edib ki, yuxarı kurslarda tədris aparan klinik kafedralarda imtahanların nəticələri yüksək olsa da, o qədər də obyektiv hesab edilə bilməz. Çünki imtahanların keçirilməsi qaydalarına əsasən, hər semestr ərzində testlərin ümumi bazası 20-30% həcmində yenilənməlidir. Amma əksər klinik kafedralarda nəinki 20-30% yenilənmə yoxdur, hətta bir neçə ildir ki, eyni testlər yenilənmə adı altında İmtahan Mərkəzinə təqdim olunur.

Məruzədə universitetimizin reytinqinin ölkə universitetləri arasında yüksək olması da öz əksini tapıb: "Bunu sübut edən faktlardan biri də Dövlət İmtahan Mərkəzi tərəfindən aparılan imtahanlar zamanı IV qrup üzrə yüksək bal toplayanların böyük əksəriyyətinin bizim universiteti seçməsidir. Son 6 ildə hər il 23-26 nəfər olmaqla 145 Prezident təqaüdçüsü (yəni qrup üzrə bütün Prezident təqaüdçüləri) qəbul imtahanlarının nəticələrinə görə qrupun ən yaxşıları olublar. Lakin həmin tələbələrin universitetdə təhsil zamanı əldə etdiyi nəticələr heç də qənaətbəxş deyil, 6 il ərzində universitetə daxil olan 145 Prezident təqaüdçüsündən yalnız 25 nəfər sonadək bu adı doğruldub. Gələcəkdə belə gənclərimizin potensialını aşkar edib tibb elminin inkişafına, yüksək ixtisaslı həkim və əczaçı kadrların hazırlanmasına yönəltməliyik. Bu bizim bir universitet olaraq vətən və xalq qarşısında ümdə borcumuzdur".

Hesabat məruzəsində Apellyasiya Komissiyasının fəaliyyətinə də toxunan prorektor, bir çox kafedralara dair müraciətlərin əksər hissəsinin əsaslı olmasını həmin kafedralarda testin hazırlanmasında müəyyən problemlərin olması ilə əlaqələndirib və bu kafedraların müdirlərini, ekspertlərini gələcəkdə daha diqqətli olmağa çağırıb. Həmçinin bəzi kafedralarda əksinə, testin düzgün hazırlanması hesabına müraciətlərin əksəriyyətinin əsassız olduğunu diqqətə çatdırıb.



S.Əliyev 2023/2024-cü tədris ilinin əvvəlindən ATU-da 48 ölkədən 2228 nəfər əcnəbi tələbənin təhsil aldığını, universitetimizdə xarici tələbələrin sayının artırılması məqsədilə dekanlığın təhsil sahəsində dünyanın müxtəlif ölkələri və universitetləri ilə əlaqələri genişləndirdiyini vurğulayıb. Onun sözlərinə görə, xarici ölkələrdən universitetimizdə təhsil almaq üçün müraciət edən tələbələrin sayı ildən-ilə artır. Tədrisin ingilis dilində aparılması xarici ölkə vətəndaşlarının universitetimizə cəlb olunmasında böyük əhəmiyyət kəsb edir. Xarici tələbələrlə iş üzrə dekanlığın yerinə yetirdiyi digər vacib işlərdən biri tələbələrin Bakı şəhərində müvəqqəti yaşamaq hüququnu təmin etmək üçün Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti ilə sıx əlaqə saxlayaraq onların qeydiyyatını təşkil etməkdən ibarətdir. Eyni zamanda dekanlığın əməkdaşları tez-tez yataqxanada yaşayan tələbələrin məişət şəraiti ilə maraqlanır və problemlərinin yerindəcə həll olunmasına çalışırlar. Tədris ili ərzində tələbələrin yaşayış şəraitinin yaxşılışdırılması rektorun və dekanlığın diqqət mərkəzindədir.

Çıxışının sonunda istər dekanlıqların, istərsə də kafedraların və professor-müəllim heyətinin tədris sahəsində görməli işlərinin çox olduğunu vurğulayan prorektor bir daha xatırladıb ki, kafedraların maddi-texniki bazasının ilbəil yaxşılaşması, yeni dərsliklərin və dərs vəsaitlərinin nəşr olunması, professor-müəllim heyətinin keyfiyyətcə yeniləşməsinə baxmayaraq, tədrisin nəticəsi hələ də bizi qane etmir: "Ona görə də adları məruzədə qeyd olunan və qeyd olunmayan dekanlıqlar, şöbələr, kafedralar, professor-müəllim heyəti və universitetdə çalışan digər aparıcı mütəxəssislər tədrisin, tədris-metodik işin təşkili və yaxşılaşdırılmasında aktiv iştirak etməlidirlər. Cari semestrin sonunda Əczaçılıq fakültəsi istisna olmaqla, bütün ixtisaslar üzrə Dövlət Attestasiya sınaqları kredit sistemi ilə aparılacaq. Əlaqədar qurumlar Dövlət Attestasiya sınaqları üçün bacarıq imtahanlarının biletlərini və test suallarını, həmçinin bütün kurslar üzrə, xüsusən I kurs üzrə yeni qaydada test imtahan sualları hazırlasın və ekspertiza üçün universitetin Təhsilin keyfiyyətinin təminatı və innovasiya şöbəsinə təqdim etsinlər".





Məruzə ətrafında çıxış edən Apellyasiya Komissiyasının sədri, professor Eldar Qarayev 2023-2024-cü tədris ilinin payız semestri üzrə apellyasiya şikayətlərinin nəticələrini şura üzvlərinin nəzərinə çatdırıb. Qeyd edib ki, aralıq imtahanlar üzrə 2248, yekun imtahanlar üzrə 2114 müraciətə baxılıb. Cəmi 4362 müraciətdən 1686-sı əsaslı, 2776-sı isə əsassız olub.

Tibbi mikrobiologiya və immunologiya kafedrasının müdiri, professor Həqiqət Qədirova və Neyrocərrahiyyə kafedrasının müdiri, dosent Rövşən Xəlilzadə məruzədə səslənən iradlarla bağlı, həmçinin kafedralarına aid əsaslı və əsassız müraciətlər, testlərin yenilənməsi haqqında fikirlərini şura üzvləri ilə bölüşüblər.

Məruzə və çıxışlarda səslənən fikirləri yekunlaşdıran rektor ilk növbədə akkreditasiya məsələsinə toxunub. Akkreditasiya Komissiyasının müxtəlif şöbələrə və kafedralara aid 70-dən artıq iradını, bu ilin mayında monitorinq aparılacağını xatırladaraq bildirib ki, beynəlxalq akkreditasiya birdəfəlik proses deyil. Yəni universitetimizin 5 il müddətinə akkreditasiyadan keçməsinə baxmayaraq, Akkreditasiya Agentliyi onu həmin müddət başa çatmamış ləğv edə də bilər. Bu nöqteyi-nəzərdən komissiyanın iradlarına cavab olaraq bəzi kafedralarda "mən hər şeyi bilirəm, heç kəs məni öyrədə bilməz" və yaxud "həmişə belə olub" kimi yanaşmanın yanlışlığına diqqət çəkən universitetin rəhbəri, artıq zamanın çox dəyişdiyini, tələbələrin tələbkarlığının xeyli artdığını da vurğulayıb: "İndiki tələbələr bəzi müəllimlərə iradlarını açıq şəkildə bildirməkdən çəkinmirlər. Ona görə də müəllimlərin yaşından, vəzifəsindən asılı olmayaraq hər zaman öyrənməsi heç vaxt gec deyil. Unutmamalıyıq ki, kafedraların yoxlanılması, sənədlərin müvafiq qanunvericiliyə və Akkreditasiya Komissiyasının tələblərinə uyğun tərtib olunması, eləcə də proqramların müasirləşdirilməsi əsas fəaliyyət istiqamətimizdir".

Rektor G.Gəraybəyli yekun nitqində daxili nizam-intizam qaydalarının və davamiyyətin daim diqqət mərkəzində saxlanılmasının vacibliyindən də söhbət açıb. Eyni zamanda testlərin yenilənməsi, mütəxəssislərin ayrı-ayrı ixtisaslar üzrə təlimlərə və kurslara cəlb edilməsi, davamiyyətlə bağlı tələbələrin və kafedraların apardığı qeydiyyatlar arasında ziddiyyətlərin olmasına münasibət bildirib.

Kafedralarda qrup müəllimlərinin tez-tez dəyişməsi, bəzən laborantların əsassız olaraq onları əvəz etməsi, saathesabı dəvət edilən müəllimlərin vaxtında əmrləşdirilməməsi, hətta rezidentlərə tələbələrlə bir yerdə dərs deyilməsi kimi neqativ hallardan da bəhs edən rektor, mövcud problemlərin həlli yolları barədə fikirlərini diqqətə çatdırıb.

Hesabat məruzəsinə dair müzakirələr bitdikdən sonra Klinik farmakologiya kafedrasının ləğv edilməsi, Əczaçılıq və İctimai səhiyyə fakültələrində IV kursun sonuncu semestrində tələbələrin istehsalat təcrübəsindən biliyinin yekun qiymətləndirilməsinin OSKİ formada 100 ballıq sistemlə aparılması barədə məsələlərə baxılıb. Bundan əlavə, Səhiyyə Nazirliyi tərəfindən Azərbaycan Tibb Universitetinə göndərilən əlyazmaların, həmçinin dərslik, dərs vəsaitləri, metodik vəsaitlərin nəşrinə razılıq verən Elmi Şura, sonda elmi adları təsdiqləyib.

**Arif MƏMMƏDLİ**

# Fakültələrdə tələbələrlə görüşlər keçirilir

**Azərbaycan Tibb Universitetinin fakültələrində dekan rəhbərliyi ilə tələbələr və qrup nümayəndələri arasında ənənəvi görüşlər davam etdirilir.**

Bu günlərdə I Müalicə-profilaktika fakültəsinin rəhbərliyi ilə müxtəlif kurslar üzrə qrup nümayəndələri arasında silsilə toplantılar keçirilib. Görüşlərdə tələbələri narahat edən məsələlər müzakirə olunub, onları maraqlandıran suallar cavablandırılıb. Həmçinin əvvəlki semestrlərdə rast gəlinən çatışmazlıqların aradan qaldırılması ilə bağlı dekan Elşad Novruzov tərəfindən tövsiyələr səsləndirilib.





Daha bir görüş isə Stomatologiya fakültəsində baş tutub. Belə ki, fakültə dekanlığının rəhbərliyi ilə bütün kurslar üzrə qrup nümayəndələri arasında görüş keçirilib. Fakültənin dekanı, dosent Elmira Əliyeva, dekan müavini Aysel Həşimova və akademik məsləhətçi Həcər İsmayılovanın iştirak etdiyi görüşə həm yerli, həm də əcnəbi tələbələrin qrup təmsilçiləri qatılıb.

Toplantıda tədris prosesi ilə əlaqədar vacib məsələlər, o cümlədən davamiyyət, nizam-intizam və davranış qaydaları ilə bağlı məqamlar müzakirə olunub. Həmçinin qrup nümayəndələrinin müxtəlif mövzularla bağlı sualları cavablandırılıb.

# Tələbə Elmi Cəmiyyəti öz jurnalını və saytını təqdim edib



**Azərbaycan Tibb Universitetinin Tələbə Elmi Cəmiyyəti ənənəvi növbəti tədbirini keçirib. Tədbirdə TEC-in yekun konfransına hazırlıq, TEC mətbu orqanının, saytının təqdimatı müzakirə olunub, startap layihəsi və onun istiqamətləri ilə bağlı iştirakçılara geniş məlumat verilib.**

Tədbiri giriş sözü ilə açan ATU TEC-in elmi rəhbəri, tibb elmləri doktoru Müşfiq Həsənov TEC-in mətbu orqanı olacaq "Azerbaijan Medical Student Journal"ın iki dildə nəşr olunacağını bildirib: "Bu mətbu orqanı təsis etməkdə əsas məqsədimiz orada ən yaxşı tələbə elmi-tədqiqat işlərini dərc etmək, universitetin saytında yerləşdirməkdir. Qeyd edim ki, jurnalın baş redaktoru ATU-nun rektoru, professor Gəray Gəraybəyli, müavinlər isə universitetin Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov, mən və TEC-in sədri Həmid Səfərlidir. Jurnalda redaksiya və məsləhət şuralarının təşkili də nəzərdə tutulub.

M.Həsənov xatırladıb ki, tələbələrin elmi araşdırmalarının səmərəliliyini daha da artırmaq məqsədi ilə universitetimizdə Elmi Departament təşkil olunmaqdadır. Departamentin may ayında fəaliyyətə başlayacağı nəzərdə tutulub: "Amma biz də o vaxtadək öz işlərimizin qurulması istiqamətində çalışırıq. Elmi konfranslarımızı, TEC-in fəaliyyətini, startap layihələrini özündə birləşdirən bu departamenti yüksək səviyyədə idarə edəcəyimizə əminəm".

Professor TEC-in yekun konfransının mayın 22-23-də Naxçıvan şəhərində keçiriləcəyini də diqqətə çatdırıb. Bildirib ki, bu konfrans Azərbaycan Tibb Universiteti, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı, Bakı Dövlət Universitetinin Tibbi genetika və biologiya fakültəsinin birgə iştirakı ilə keçiriləcək: "Biz də fakültələrimizin ən yaxşı tələbə elmi-tədqiqat işlərini konfransa göndərəcəyik. İnanıram ki, orada da gələcək işlərimizə faydalı olacaq yüksək nəticələr göstərəcəyik".

TEC-in sədri Həmid Səfərli "Azerbaijan Medical Student Journal"ın və atutec1932@wordpress.com saytının yaradılma məqsədləri, orada təqdim olunacaq funksiyalar, saytdakı bölmələr və bütün bunların elmi-tədqiqat işləri ilə məşğul olan tələbələr üçün faydası və əhəmiyyətindən söhbət açıb.

Universitetin dosenti Aytən Cəfərova startap layihələri, bu layihələrə başlamağın şərtləri və müəyyən istiqamətləri ilə bağlı tədbir iştirakçılarına geniş məlumat verib. Ona ünvanlanan sualları ətraflı şəkildə cavablandıran A.Cəfərova, tələbələri startap layihələrində aktiv iştirak etməyə və yeni ideyalar ortaya qaymağa çağırıb.

Tədbir müzakirələr və maraqlı təkliflərin səsləndirilməsi ilə başa çatıb.

**Müdafiə Nazirliyi və İRƏLİ İctimai Birliyinin təşəbbüsü ilə həyata keçirilən "Əsgərin kitab rəfi" kitabtoplama aksiyası çərçivəsində adıçəkilən qurumların və Azərbaycan Tibb Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsinin birgə təşkilatçılığı ilə "Məndən başlanır Vətən" adlı ədəbi-bədii tədbir baş tutub. Tədbirdə ictimaiyyət nümayəndələri, media mənsubları və tələbələr iştirak ediblər.**

# "Məndən başlanır Vətən" adlı ədəbi-bədii tədbir keçirilib

## Çingiz Əlləzov: ATU gənclərin hərtərəfli inkişafı sahəsində həmişə öndə olub






Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyev və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbir iştirakçılarını salamlayan Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinin dekanı, əməkdar həkim Çingiz Əlləzov "Məndən başlanır Vətən" adlı silsilə tədbirlərin birincisinin ATU-da keçirilməsinə görə İRƏLİ İctimai Birliyinə öz təşəkkürünü bildirib. Diqqətə çatdırılıb ki, Azərbaycan Tibb Universiteti gənclərin hərtərəfli inkişafı sahəsində həmişə öndə olub. Ordu sıralarında xidmət göstərən hərbi qulluqçuların savadlı, intellektual, vətənpərvər yetişdirilməli və Vətənə, dövlətə sadiq tərbiyə olunmalı olduğunu bildirən Çingiz Əlləzov bu istiqamətdə böyük əhəmiyyətə malik "Əsgərin kitab rəfi" aksiyasına uğurlar arzu edib.

Daha sonra çıxışçılar – Vətən müharibəsi iştirakçısı, Füzulinin və Cəbrayılın azad olunmasına görə medallarla təltif edilmiş İRƏLİ İB-nin sədri Şahin Rəhmanlı, Azərbaycan Ordusunun polkovniki, Əməkdar incəsənət xadimi, Zəfər və Qələbə paradının ssenari müəllifi və aparıcısı Abdulla Qurbani gənclərin hərbi-vətənpərvərlik mövzularında təşkil olunan müxtəlif layihələrdə iştirakından söhbət açıblar. Natiqlər bildiriblər ki, 44 günlük Vətən müharibəsindən sonra xalqımızın yeni dövrə qədəm qoymasında gənclərin hərtərəfli inkişafı böyük rol oynayır. Ötən ilin sentyabr ayında baş tutan antiterror tədbirlərində də Azərbaycan gəncliyinin bir daha öz sözünü deməsi bu istiqamətdə görülmüş işlərin bariz nümunəsidir.

Çıxışçılar bundan sonra da Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qələbələr yaşayacağımıza və müstəqilliyimizin əbədi olacağına əminliklərini ifadə ediblər. Tədbirin bədii hissəsində Müdafiə Nazirliyinin nəzdində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi, əməkdar artist, polkovnik Cahangir Qurbanov, vokal qrupu və mahnı-rəqs ansamblının ifasında ədəbi, musiqili, xoreoqrafik konsert proqramı təqdim olunub. Daha sonra ATU Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində Teatr Klubunun üzvləri "Əlvida" tamaşasını nümayiş etdiriblər. Tədbirin sonunda xatirə şəkli çəkdirilib, Azərbaycan Tibb Universiteti tərəfindən "Əsgərin kitab rəfi" aksiyası üçün toplanmış kitablar İRƏLİ-yə təhvil verilib.

Xatırladaq ki, bu aksiyasının keçirilməsində əsas məqsəd əsgərlərimizin asudə vaxtının səmərəli təşkilinə töhfə vermək, eləcə də gənclər arasında mütaliəyə marağı artırmaqdır. Ötən il aksiya çərçivəsində 12 mindən çox kitab toplanaraq işğaldan azad olunmuş ərazilərdəki hərbi hissələrə göndərilib.

# Azərbaycan–Türkiyə Ortopediya Günləri

## Bu sahə üzrə dünya praktikasındakı yeniliklər haqqında geniş informasiya mübadiləsi aparılıb

**Fevralın 29-da Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında Azərbaycan–Türkiyə Ortopediya Günləri çərçivəsində elmi konfrans keçirilib. ATU və Türkiyənin Qazi Universitetinin birgə təşkilatçılığı ilə baş tutan tədbiri giriş sözü ilə klinikanın direktoru Fərid Eyvazov açıb.**

O, ortopediyanın aktual problemlərinə həsr olunan konfransın tələbə və rezidentlər üçün xüsusilə əhəmiyyətli olacağını vurğulayıb, hələ 15-20 il əvvəl Türkiyədə təhsil alarkən bu formatda keçirilən konfranslardan yetərincə yararlandıqlarını xatırladıb. Eyni zamanda Azərbaycan Tibb Universiteti ilə Qazi Universiteti arasında imzalanan memorandumun elmi və mütəxəssis mübadiləsindəki rolundan danışaraq, tələbə və rezidentləri ikitərəfli müqavilənin imkanlarından faydalanmağa çağırıb və konfransın işinə uğurlar arzulayıb.

Türkiyə Sümük-Oynaq Cərrahiyyəsi Cəmiyyətinin rəhbəri, professor Vedat Şahin də tədbirdə çıxış edərək qardaş Azərbaycanda olmaqdan böyük məmnuniyyət duyduğunu, iki ölkə ortopedləri arasındakı əlaqələrin türk dünyası üçün xüsusi önəm daşıdığını diqqətə çatdırıb.

Bundan sonra dosent Baran Sarıkayanın xalq arasında sümük iltihabı və ya sümük iliyi iltihabı kimi də adlandırılan osteomielit xəstəliyi haqqında məruzəsi dinlənilib.




Mütəxəssis sümük iltihabının əlamətlərindən və yaranma səbəblərindən danışaraq qeyd edib ki, ilkin və ən aşkar simptomu ağrıdır: "Sümüyün yerləşdiyi yerə toxunarkən ortaya çıxan və ya sümüyün yerləşdiyi nahiyənin hərəkəti zamanı hiss edilə bilən ağrılar sümük iltihabının göstəricisidir. Bu baxımdan hər hansı bir məcburiyyət və ya hərəkətsizlik səbəbindən meydana çıxmayan, bir neçə həftə ərzində öz-özünə sağalmayan, uzun müddət davam edən sümük və oynaq ağrıları ciddi şəkildə diqqətə alınmalı və dərhal müayinə üçün müraciət edilməlidir".

Onun sözlərinə görə, sümük iltihabı diaqnozu qoyulmuş xəstələrdə xəstəliyin daha da irəliləməsinin qarşısını almaq məqsədilə müalicəyə dərhal başlanılmalıdır. Müalicənin sxemi xəstəliyin şiddətinə görə təyin edilir. Yüngül gedişli sümük iltihablarında təkcə antibiotik müalicəsi yetərlidir. Müəyyən səviyyəyə qədər irəliləmiş osteomielit xəstələrində isə daha çox infeksiyalaşmış ölü sümük toxumalarının cərrahi əməliyyatla çıxarılması, ardınca stasionar şəraitdə intravenoz yolla antibiotik müalicəsinin aparılması məqsədə uyğundur.

Türkiyəli məşhur ortoped və travmatoloqların qatıldığı konfransda müvafiq sahə üzrə dünya praktikasındakı yeniliklər haqqında geniş informasiya mübadiləsi də aparılıb. Bildirilib ki, bilikləri və cərrahi vərdişləri bir araya gətirmək cəhdi ortoped və travmatoloqlara nəzəriyyəni təcrübədə tətbiq etmək və sınıqların müalicəsində daha yaxşı nəticələr qazanmaq imkan yaradır.

Konqresin uşaq ortopediyasına həsr edilən hissəsində travmalar, onların yaranması, anadangəlmə qüsur və digər məsələlər müzakirə edilib. Həmçinin hərəkət funksiyalarının bərpası məqsədilə oynaqların patologiyasının operativ müalicə metodları müzakirə olunub.

Ortopediya günlərinin keçirilməsində əsas məqsəd diaqnostika sahəsində təcrübə mübadiləsi aparmaq, cərrahi müdaxilənin optimal yollarını müəyyənləşdirməkdir. 3 gün davam edən Azərbaycan–Türkiyə Ortopediya Günlərinin tematik sessiyalarında türkiyəli mütəxəssislər Ulunay Kanatlı, Mustafa Özer, Baybars Ataoğlu, Mühmet Ali Tökgöz və İnci Hazal Ayas ortopediyanın müxtəlif istiqamətlərinə dair öz təcrübələrini tədbir iştirakçıları ilə bölüşüblər.

Qeyd edək ki, ortopediya və travmatologiya üzrə Türkiyə xəstəxanaları böyük təcrübəyə və texnologiyaya sahibdir. Türkiyədə ortopedik və travmatoloji müalicə zamanı xəstəxanalar pasiyentlərin bədən, əzələ, sümük və oynaq problemlərini travmatologiya və ortopediya şöbəsində həyata keçirirlər. Bu müalicələr fizioterapiya və reabilitasiya ilə dəstəklənir.

# Uşaqlarda diş sağlamlığına erkən yaşlardan diqqət olunmalıdır

## Ağız Boşluğunun Sağlamlığı Gününə həsr olunmuş konfrans keçirilib



**Martın 6-da Azərbaycan Tibb Universitetində 20 mart - Ümumdünya Ağız Boşluğunun Sağlamlığı Gününə həsr edilmiş elmi-praktik konfrans keçirilib.**

Konfransı giriş sözü ilə açan ATU-nun Doktorantura və dissertantura şöbəsinin müdiri, Terapevtik stomatologiya kafedrasının professoru Rizvan Məmmədov bildirib ki, ilk dəfə 20 mart 2008-ci il tarixdə Ümumdünya Stomatoloqlar Federasiyası (FDI) tərəfindən təşkil olunan konfransın hər il keçirilməsi artıq bir ənənəyə çevrilib.

Əsas məqsəd ağız boşluğunun gigiyenasına və profilaktikasına diqqəti artırmaq, həkim-stomatoloqlara müraciət edənə qədər uşaqlarda ağız boşluğu gigiyenasına xüsusi önəm vermək, profilaktika tədbirlərinə erkən yaşdan başlamaq və həmin tədbirləri təkmilləşdirməkdir. Yəni ağız boşluğunun gigiyenasına və profilaktikasına uşaqlarda dişlərin çıxmağa başladığı dövrdən başlamaq tövsiyə olunur. Bu tövsiyələrə əməl olunduqda, ağız boşluğundakı stomatoloji xəstəliklərin təxminən 20-25 faiz azaldığı müşahidə edilir. Eyni zamanda diş həkimlərinin də ailə həkimi statusunda olmasının vacibliyini söyləyən professorun sözlərinə görə, bu zaman uşaqlarda qorxu, stress yaranmır, onlar gələcəkdə rahatlıqla stomatoloqlara müraciət edə bilirlər.

Ağız boşluğunun gigiyenası və profilaktikasının əhəmiyyətini vurğulayan R.Məmmədov konfransın işinə uğurlar arzulayıb və Ümumdünya Ağız Boşluğunun Sağlamlığı Gününə həsr edilmiş növbəti elmi-praktik konfransın bu ilin sentyabrında İstanbulda keçiriləcəyini diqqətə çatdırıb.

ATU-nun Uşaq stomatologiyası kafedrasının müdiri, əməkdar elm xadimi, professor Rəna Əliyeva da tədbirdə çıxış edərək diş həkimliyinin insanlara gərəkliliyi ilə fərqlənən, daim təkmilləşən peşələrdən biri olduğunu deyib. O, 1998-ci ildə yaradılmış Azərbaycan Stomatoloji Assosiasiyasının öz fəaliyyətini dünya standartlarına uyğun qurduğunu deyib: "ASA-nın fəaliyyətinin mühüm məqamlarından biri də onun öz çap orqanını – "Qafqazın stomatoloji yenilikləri" jurnalını yaratması idi. 2000-ci il sentyabrın 7-də Bakıda bu jurnalın 1-ci nömrəsinin təqdimatı olmuşdur. Redaksiya heyətinə yaxın və uzaq xarici ölkələrin görkəmli alimləri daxildir. Həmin dövrdə Cənubi Qafqazda ilk və yeganə stomatoloji jurnalın yaradılması stomatologiyanın, ümumilikdə tibbin elmi və praktik nailiyyətlərinin yayılmasına kömək etdi. Onun köməyi ilə xarici mətbuat orqanları, yaradıcılıq birlikləri, tibb müəssisələri ilə əlaqə qurulur".

Uşaqların və yeniyetmələrin sağlamlıq vəziyyətinin millətin gələcəyini müəyyənləşdirdiyini bildirən professor R.Əliyeva qeyd edib ki, Avropa strategiyasının nəzarət etdiyi mühüm sahələrdən biri də diş sağlamlığıdır. Əsas meyarlardan biri isə diş kariyesi və periodontal xəstəliklərin sayının azaldılmasıdır.

ASA-nın sədri 10 il müddətdə yarım milyondan çox uşağı əhatə edən ağız gigiyenasını öyrətmək üzrə profilaktik stomatoloji proqramın həyata keçirildiyini vurğulayıb. Bu proqram ASA-nın stomatoloji xəstəliklərin profilaktikası sahəsində real nailiyyətlərinin göstəricisidir.

Onun sözlərinə görə, ASA yarandığı gündən etibarən hər il Ümumdünya Stomatoloqlar Federasiyasının FDI və ERO FDI konqreslərində iştirak edir və Azərbaycanın nümayəndə heyətinin FDI Ümumdünya Konqresinə səfərlərini təşkil edir. Fərəhləndirici haldır ki, 2016-cı ildə Bakıda ÜSB (FDI) Avropa Regional Parlamentinin (ERO) illik plenar sessiyası keçirilib. Həmin tədbirdə FDI prezidenti və 37 Avropa ölkəsinin stomatoloji təşkilatlarının birinci şəxsləri iştirak ediblər. Bu illər ərzində ASA həm yerli, həm də xarici peşəkar icmaların bərabərhüquqlu tərəfdaşına çevrilib.

Bundan sonra elmi-praktik konfrans elmi tədqiqatların təqdimatı ilə öz işini davam etdirib. Dosent Gülşən Zeynalovanın "Oral-B-iO 9 diş fırçasının təqdimatı", assistent Fəridə Yaqubovanın "Ağız və diş xəstəliklərinin tibbi, psixososial və iqtisadı təsirinin qiymətləndirilməsi", dosent Elnur İmanovun isə "Uşaqlarda periodont toxumalarının iltihabı xəstəliklərinin kompleks müalicəsi" mövzusunda məruzələri dinlənilib.

Konfransda ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov, müvafiq kafedraların aparıcı mütəxəssisləri, rezidentlər və tələbələr iştirak ediblər.

# Türkiyəli professor tələbələrə tövsiyələr verib





**Azərbaycan Tibb Universitetində Türkiyənin Yunus Əmrə İnstitutu ilə ATU-nun birgə tədbiri keçirilib. ATU-nun tələbələri üçün nəzərdə tutulan seminarı universitetin Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Qoşqar İsmayılov açıb.**

O, çıxışı zamanı universitetimizlə Yunus Əmrə İnstitutu arasında 5 ilə yaxındır ki, geniş əlaqələrin mövcud olduğunu bildirib: "İnstitutun rəhbərliyinin təşəbbüsü ilə universitetimizdə bir sıra tədbirlər keçirilib. Bugünkü tədbiri də ənənəvi olaraq keçirilən tədbirlərdən biri hesab etmək olar. İnstitutun Bakı təmsilçiliyinin başqanı, professor Selçuk Karakılıç və kardiologiya üzrə mütəxəssis, professor Özlem Arıcan qonağımızdır. Tədbirimizin əsas məqsədi Özlem xanımın "Doktormu, həkimmi?" mövzusunda dəyərli fikirlərini dinləməkdir".

Professor Ö.Arıcan əvvəlcə öz həyat yolundan danışıb, bu sahənin mütəxəssisi olmaq üçün hansı çətinliklərdən keçdiyini, o cümlədən əsl həkimliyin şərtləri ilə bağlı fikirlərini açıqlayıb. Bildirib ki, əsl həkimin işi xəstəni müayinə edib, onun sağalması üçün resept yazmaqla bitmir: "Həkim hər şeydən öncə öz münasibəti və davranışları ilə xəstədə xoş təəssürat yaratmalı, etdiyi müalicə ilə onu sağaldacağına inandırmalıdır. Yəni üzündən təbəssüm əksik olmamalı, özünə güvənməli, pasiyentə xəstəliyi ilə bağlı aparacağı mübarizədə söz və davranışları ilə yaxından yardımçı olacağını ifadə etməlidir. Bu zaman xəstədə sağalacağına dair ümid işığı yanır, həkimin apardığı müalicələr isə tez bir zamanda təsirini göstərir.

Həkim həm də öz görünüşünə, çəkisinə, təmizliyə fikir verməlidir. Çünki xəstə həkimi təkcə bir həkim kimi deyil, hərtərəfli nümunəvi şəxs kimi görməlidir ki, canını etibar etdiyi şəxslə bağlı onda yanlış təsəvvürlər yaranmasın".

Ö.Arıcan insanlarda 60-70 yaşlardan başlayaraq qan təzyiqinin nizamsızlığına rast gəlindiyini, bir çoxlarının öz keçmişini yada salıb, buraxdığı səhvlərlə bağlı iztirablar çəkdiyini və bundan dolayı infarkt keçirdiklərini də diqqətə çatdırıb. Bildirib ki, əksər hallarda belə xəstələr kardioloqa deyil, psixoloqa müraciət edir, buna görə də aldıqları müalicənin nəticəsini görmürlər.

Türkiyəli professor çıxışının sonunda gələcəyin həkimlərinə daim axtarışda olmağı, yeni texnologiyaların imkanlarından geniş yararlanmağı, öz bilik və təcrübələrini həmişə artırmağı tövsiyə edib.

**Qabil ABDULLAYEV**

**Martın 2-də Avropa İttifaqının Azərbaycan Respublikasındakı nümayəndəliyi və Gənc Avropa səfirlərinin birgə təşkilatçılığı ilə "Avropa Bilik Yarışı" keçirilib.**



# Tələbələrimiz "Avropa Bilik Yarışı"nın qalibi olub

## Müsabiqəyə Bakı və müxtəlif bölgələrdən 72 komanda müraciət etmişdi

Avropa İttifaqı səfiri Peter Mixalkonun rəsmi olaraq açdığı tədbirdə Belçika, İsveç, Almaniya, Fransa, Rumıniya və Slovakiyanın Azərbaycanda fəaliyyət göstərən səfir və diplomatları da iştirak ediblər.

Azərbaycanın müxtəlif bölgələrindən olan 14-26 yaş arasında gənc istedadları bir araya gətirən yarışın məqsədi Avropa İttifaqı və ona üzv dövlətlərə dair biliklərin interaktiv şəkildə təşviq olunmasını dəstəkləmək, analitik bacarıqları inkişaf etdirmək, eyni zamanda, komanda işini gücləndirməkdir.

Müsabiqəyə Bakıdan və müxtəlif bölgələrdən ümumilikdə 300 nəfərin qatıldığı 72 komanda müraciət edib. Seçilmiş 65 gəncin təmsil olunduğu 18 komanda yarışda Avropa İttifaqı və onun üzv dövlətləri haqqında biliklərini nümayiş etdirib.

Yarışda Azərbaycan Tibb Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsi İntellektual Oyunlar Klubunun üzvlərindən ibarət "Sinaps" komandası ən yüksək nəticə göstərərək birinci yeri qazanıb.

"Avropa Bilik Yarışı"nda universitetimizi I Müalicə-profilaktika fakültəsinin V kurs tələbəsi Arzu Musayeva, II Müalicə-profilaktika fakültəsinin VI kurs tələbəsi Fərid Məmmədhüseynov, İctimai səhiyyə fakültəsinin IV kurs tələbəsi Cavid Əhmədov və Stomatologiya fakültəsinin III kurs tələbəsi Mirleyla Ağayeva təmsil ediblər.

Qaliblərə mükafatlar səfir Peter Mixalko tərəfindən təqdim olunub.

# Əməkdaşımız beynəlxalq konqresdə çıxış edib

**Azərbaycan Tibb Universitetinin əməkdaşı IV Milli Əczaçılıq Təhsili və Akkreditasiya Konqresində (NPEAC) məruzə ilə çıxış edib. Əczaçılıq toksikologiyası və kimya kafedrasının assistenti Kəmalə Bədəlova "Azərbaycan Tibb Universitetində Əczaçılığın beynəlxalq akkreditasiyası. Beynəlxalq akkreditasiya - təhsilin keyfiyyətinin yüksəldilməsi amili: yanaşmalar və perspektivlər" mövzusunda 20 dəqiqəlik təqdimat keçirib.**



Ankarada Qazi Universiteti tərəfindən təşkil edilən konqresdə əczaçılıq təhsili və akkreditasiya sahəsində əldə edilən nailiyyətlər, keyfiyyət təminatı haqqında məlumat verilib. Tədbir çərçivəsində "Milli və Beynəlxalq akkreditasiya qurumları, ECZAKDER və əczaçılıq fakültələrinin ünsiyyəti, əməkdaşlığı və qarşılıqlı əlaqələri", "Əczaçılıq təhsilində əczaçılıq sənayesinin tərəfdaşlığının ölçüləri", "Qlobal epidemiya ilə dünyada geniş yayılmış distant təhsil təcrübələrinin araşdırılması" və "Təhsilin akkreditasiyası konteksti" mövzusunda müzakirələr aparılıb. Konqresdə müxtəlif universitetlərdən olan 126 alim, o cümlədən ABŞ, Belçika, Sloveniya, Nigeriya, Özbəkistandan sənaye sektorunun nümayəndələri iştirak ediblər.

Tədbir çərçivəsində ATU-nun təmsilçisi Qazi Universitetinin Əczaçılıq fakültəsi ilə tanış olub, həmçinin müxtəlif universitetlərin nümayəndələri, elm adamları və tələbələrlə görüşlər keçirib. Görüşlər əsnasında Əczaçılıq Təhsili Proqramlarının Qiymətləndirilməsi və Akkreditasiyası Dərnəyi növbəti toplantının Azərbaycanda keçirilməsini təklif edib.

# Yodun geniş təbliğinə ehtiyac varmı?

## Professor Musa Qəniyev deyir ki, bir insan ömrü boyu cəmi 3-5 qram yod istifadə edir

**ATU-nun Farmakologiya kafedrasının müdiri, professor Musa Qəniyev son vaxtlar cəmiyyətdə yod çatışmazlığı və bunun qarşısının alınması üçün yod preparatlarından geniş istifadə olunması ilə bağlı aparılan çoxsaylı müzakirələri nəzərə alaraq, özünün sosial şəbəkə hesabında bu məsələyə toxunub. Onun sözlərinə görə, bəzi həkimlər və nüfuz sahibi olan şəxslər sosial şəbəkələrdə yodun "min bir dərdin dərmanı" olduğunu iddia edir. Hətta hamiləlik zamanı ana sağlamlığı, dölün normal inkişafı, xüsusən ilkin uşaqlıq yaş dövründə zehni və nitq inkişafında yodun ən önəmli və zəruri vasitə olduğu söylənilir.**



Professor qeyd edib ki, bu qənaətin istinad nöqtələrindən biri ÜST-ün tövsiyə xarakterli statistik təhlilidir: "Məsələn, dünya əhalisinin 30%-dən çoxunun yod çatışmazlığından əziyyət çəkdiyi bildirilir. Gündəlik yoda olan tələbatdan 50 dəfə artıq yod qəbul edən yapon qadınları arasında döş vəzi xərçənginin digər ölkələrə nisbətən 3 dəfə az olması, insanların orta ömür müddətinin isə 82 il olduğu bildirilir və s".

Amma elmi məntiqin bu söylənilənləri təsdiq etmədiyini deyən alim, yodun dəniz yosunları və neft buruğu sularından alındığını xatırladıb: "Yeni alınması böyük maddiyyat tələb etməyən, satışı isə böyük gəlirlər qazandıran sahədir. Odur ki, yodun təbliği hər şeydən əvvəl marketinq (bazar) maraqlarına xidmət edir.

İnsan orqanizminin yoda tələbatına gəlincə, orta çəki vahidi kimi qəbul olunan 70 kq-lıq insan orqanizmində 60-dan artıq kimyəvi element var. Bədən kütləsinin 99%-dən çoxunu 6 element - oksigen, hidrogen, azot, karbon, kalsium, fosfor təşkil edir. Yod yerdə qalan 54 mikroelementdən (element yox) biridir. O həm də orqanizmin mövcudiyyəti üçün zəruri olan 22 mikroelement sırasına daxildir, 54-lük sıralanmada 20-ci yerdə durur.

Orqanizmin gündəlik yoda ehtiyacı 150 mikroqramdan yüksək deyil. Hormonal disfunksiya yalnız bu miqdar 50 mkq-dan az olduğu halda meydana çıxır. Digər tərəfdən, hətta yod qəbuluna mütləq məhdudiyyət qoyulsa belə, qalxanabənzər vəzdə ehtiyat halında depolaşan yod 2 ay daxili tələbatı ödəmək üçün yetərlidir".

M.Qəniyev qadınlarda hamiləlik zamanı yoda tələbatın artdığını (200 mikroqram və daha çox) diqqətə çatdıraraq bunun səbəbini də göstərib: "Dölün tələbatı ilə yanaşı, mübadilə proseslərinin intensivləşməsi və hormon balansının modulyasiyasının nəticəsi olaraq, xorionik qonadotropin tərəfindən qalxanabənzər vəz follikul hüceyrələrinin stimulyasiyası fonunda, vəzdə baş verən hipertrofiya yoda tələbatı artırır. Bu hal hamiləliyin ilk trimestrində baş verir. İkinci və üçüncü trimestrində hormonal aktivlikdə müşahidə olunan disbalans bərpa olunduğuna görə, trioid hormonların plazmadakı miqdarı azalır və yoda tələbat hamiləlikdən əvvəlki səviyyəyə düşür.

Körpələrdə leksik təfəkkür və nitqin inkişafına gəlincə, bu 3-cü xromosomda yerləşən və şərti adı ROBO2 olan genin irsiyyətə bağlı substruktur fəallığından asılıdır. Bu prosesdə yodun birbaşa iştirakını təsdiq edən elmi məlumat yoxdur".

ÜST-ün statistik təhlilinin nəticələrinə də aydınlıq gətirən farmakoloq vurğulayıb ki, bu hal, süni şəkildə yaradılan məhdudiyyətlər hesabına, təminatın tələbatı tam ödəyə bilməməsindən irəli gəlir. Çünki normal qidalanma və yaşam şərtlərində orqanizmin yoda olan gündəlik ehtiyacı tam şəkildə ödənilir: "Belə ki, insan orqanizmi yodu su və qida məhsullarından qeyri-üzvü birləşmə - yodidlər halında, dənizə yaxın ərazilərdə isə aeroionlar şəklində dəniz havasından, yəni tənəffüslə alır. Günümüzdə yoda tələbatın ödənilməsinin həlledici şərtlərindən biri, yodlaşdırılmış xörək duzundan istifadə olunmasıdır. Hazırda bəzi insanlar arterial təzyiqin yüksələ bilməsi riskinə görə, demək olar ki, xörək duzundan istifadə etmir. Amma digər tərəfdən, yeyinti məhsulları, qida əlavələri və s. tərkibinə daha çox hallarda yodun orqanizmdə miqdarını azaldan və reseptorlara bağlanmasına antoqonistlik göstərən xlor, ftor, bromid və s. kimi mikroelementlər daxil edilir. Məsələn, suyu təmizləmək üçün yod əvəzinə xlordan istifadə olunur. Çörək-bulka sənayesində 30 ildən artıqdır ki, yod əvəzinə bromdan istifadə edilir. Ftor demək olar ki, bütün diş məcunları, eləcə də içməli suyun tərkibində var. Və ya Xəzər dənizi sahilinin bəzi ərazilərində insan əli ilə ucaldılmış süni baryerlər tərkibi yodla zənginləşdiyi üçün ağırlaşmış dəniz havasının yerüstü sərbəst hərəkətinə mane olur ki, bu da yoda tələbatın ödənilməsinə mane olan səbəblərdəndir".

Sonda professor təmiz yodun çox toksiki maddə olmasını və yüksək miqdarın kəskin zəhərlənmə ilə nəticələnə biləcəyini vurğulayıb. Eyni zamanda yodun təbliği ilə məşğul olanları onun əlavə təsirləri haqqında da danışmağa dəvət edib: "Həqiqət budur ki, insan bütün ömrü boyu cəmi 3-5 qram yod istifadə edir və bu da cəmi 1 çay qaşığı tutumuna bərabərdir. Ona görə də yod haqqında son vaxtlar həyəcanla deyilib-yazılanlara ciddi yanaşmağa ehtiyac yoxdur".

**Beynəlxalq Nefroloqlar Cəmiyyəti (ISN) və Beynəlxalq Böyrək Alyansının (WKA) birgə təklifi əsasında 2006-cı ildən başlayaraq, hər il mart ayının 2-ci cümə axşamı (bu il 14 mart) Ümumdünya Böyrək Günü (World Kidney Day) kimi qeyd olunur. Əsas məqsəd orqanizm üçün böyrəklərin rolu haqqında insanları daha çox məlumatlandırmaq, böyrək xəstəliklərinin rastgəlmə tezliyi və onların sağlamlığımıza təsirini azaltmaqdır.**

# Böyrəklərin açıq zədələnməsi təcili cərrahi müdaxilə tələb edir

## Professor Əlimərdan Bağışov bu orqanın açıq və qapalı zədələnmə təhlükələrindən danışır



Xroniki böyrək çatışmazlığını şəkərli diabet və ürək-damar xəstəliyi olan yaşlı adamlarda əlilliyin və ölümün başlıca səbəbi kimi xarakterizə edən ATU-nun Urologiya kafedrasının professoru, tibb elmləri doktoru Əlimərdan Bağışov bildirib ki, böyrəklərin xroniki xəstəliklərinə gətirib çıxaran və xroniki böyrək çatışmazlığı ilə nəticələnən mühüm amillərdən biri zədələnmələrdir: "Digər üzvlər kimi böyrəklərin də zədələnmələri qapalı (dərialtı) və açıq ola bilər. Qapalı zədələnmələr zamanı orqanı örtən səthlərin (dəri, piy toxuması və s.) tamlığı pozulmur. Açıq zədələnmələrdə isə həmin səthlər defektə məruz qalır. Orqanın yalnız özünün zədələnməsinə izolə olunmuş, digər üzvlərin də zədə amilinin təsirinə məruz qalmasına isə kombinə yəsində şişkinlik böyrək ətrafı toxumada qanın (hematoma), yaxud sidiklə qanın (urohematoma) yığılması nəticəsində əmələ gəlir. Sidikdə qanın olması ya gözlə aydın görünür (makrohematuriya), ya da mikroskopik müayinə ilə aydınlaşdırılır (mikrohematuriya). Birinci və ikinci qrup zədələnmələr zamanı böyrəkətrafı toxumada hematoma əmələ gəlməzsə, yəni daxili qanaxma yoxdursa, xəstənin ümumi vəziyyəti normal qala bilər. Bu zaman bel nahiyəsində ağrılar əmələ gəlir və bəzən ağrılar tutma şəklində olur. Böyrəyin daha dərin zədələnmələri bel nahiyəsində güclü ağrıların yaranmasına, qan təzyiqinin aşağı düşməsinə, nəbzin zəifləməsinə, bədən səthinin avazımasına və soyuq tər ifrazına səbəb olur. Hətta ağır hallarda xəstə ağrı



olunmuş zədələnmə deyilir".

Onun sözlərinə görə, bir çox müxtəlif amillər – zərbə, təzyiq, hündürlükdən bərk əşya üzərinə düşmək, sağrı-bel nahiyəsinin, yaxud bütün bədənin əzilməsi böyrəyin zədələnmələrinə səbəb olur. Digər daxili orqanların kəskin yerdəyişməsi zamanı da böyrək sıxılıb zədələnə bilər. Ən nəhayət, tibbi alətlərlə müayinə vaxtı böyrəyin zədələnməsi mümkündür: "Böyrəyin qapalı zədələnmələri ağırlıq dərəcəsinə görə fərqlənir. Belə zədələnmələrə böyrəyin yiv və fibroz kapsulasının zədələnməsi (kontuziyası), böyrəyin kapsulaltı hematoması, böyrək kasacıqlarının və ləyəninin tamlığın pozulmadan böyrək parenximasının zədələnməsi və böyrək parenximası ilə bərabər kasacıqların və ləyənin tamlığının pozulması daxildir. Böyrəyin parçalanması və öz damar ayaqcığından qopması isə ən dərin (ağır) zədələnmədir ki, çox vaxt ölümlə nəticələnir.

Böyrəyin qapalı zədələnməsinin əsas əlamətləri bel nahiyəsində ağrılar, şişkinlik və sidikdə qanın olmasıdır. Ağrılar küt, kəskin və tutma şəklində ola bilər. Bel nahi-şokundan huşunu itirir. Böyrəyin öz damarından təcrid olunması isə qan təzyiqinin kəskin düşməsinə (kollaps), qan azlığına (anemiya) səbəb olur".

Cərrah-uroloq vurğulayıb ki, zədələnmə dərəcəsini öyrənmək üçün ekskretor uroqrafiya və kompüter tomoqrafiyasından istifadə edilir: "Ekskretor uroqrafiyanın köməyi ilə kontrast maddənin böyrəyin kasacıq-ləyən sistemi və parenximası hüdudundan kənara yayılıb-yayılmaması təyin edilir. Böyrəyin damarlarının zədələnməsini aşkar etmək üçün böyrək arterioqrafiyası aparılır. Bu zaman kontrast maddə bud, yaxud da bel arteriyalarından aortaya yeridilir. Sonra isə böyrəyin rentgen şəkli çəkilir.

Böyrəyin yüngül zədələnmələri konservativ (qeyri-cərrahi) yolla müalicə olunur. Xəstəyə sakitlik verilir, böyrək nahiyəsinə buz, yaxud soyuq əşyalar qoyulur, qanaxmanı saxlayan maddələr və antibakterial preparatlar təyin edilir.

Ağır zədələnmələrə isə odlu silah yaralanmaları, çapılmış və kəsilmiş yaralar aiddir. Odlu silah yaralanmalarına hərbi dövrdə daha çox rast gəlinir".

Professor Ə.Bağışov bildirib ki, böyrəyin açıq zədələnmələrinin də əsas əlaməti sidikdə qanın olması və yaradan sidiyin axmasıdır: "Bu zaman hematuriya zəif və güclü (profuz) ola bilər. Profuz qanaxma zamanı qan laxtalanıb sidik axarının mənfəzini bağlayır. Böyrək öz damarlarından qopduqda, yaxud sidik axarının mənfəzi qanla tutulduqda hematuriya olmaya bilər. Bəzən böyrəyin ağır yaralanmasına baxmayaraq, sidikdə qan az olur. Bu halda yaradan axan qan peritonarxası sahəyə, qarın və döş boşluğuna axır (əgər bu boşluqlar böyrəklə bərabər zədələnmişsə). Nəticədə xəstənin vəziyyəti tezliklə ağırlaşır: rəngi avazıyır, qan təzyiqi aşağı düşür və nəbzi zəifləyir. Belə hallarda böyrək nahiyəsində şişkinlik - hematoma və urohematoma əllənir. Böyrəklə bərabər döş və qarın boşluğu da zədələnmişsə qan və sidik həmin boşluqlara yığılaraq tənəffüsün çətinləşməsinə, qarında ağrıların yaranmasına səbəb olur. Yaradan sidiyin axması az təsadüf edilir və bu gec başlanır".

Böyrəklərin açıq zədələnmələrinin təcili cərrahi müdaxilə tələb etdiyini deyən professor, birinci növbədə yara kanalının istiqamətini təyin etməyin vacibliyini diqqətə çatdırıb. Bundan sonra zədələnmənin ağırlığından və xəstənin vəziyyətindən asılı olaraq müxtəlif cərrahi əməliyyatlar (yaraların tikilməsi, böyrəyin, yaxud onun zədələnmiş sahəsinin götürülməsi, zədələnmiş damarlara tikişlərin qoyulması) icra edilir.

Cərrah-uroloq böyrək zədələnmələrinin xroniki pielonefrit, böyrək daşlarının əmələ gəlməsi, böyrəyin büzüşməsi (nefroskleroz) və nefrogen arterial hipertoniya ilə nəticələnə biləcəyini, bu proseslər hər iki böyrəyə aid olduqda, adətən xroniki böyrək çatışmazlığının inkişaf etdiyini söyləyib və hər kəsi böyrəklərini qorumağa çağırıb.

**A.KAMRANOĞLU**

# Novruz bayramı günlərində qidalanmaya nəzarət etmək vacibdir

**Azərbaycanın qədim və milli bayramı olan Novruz baharın gəlişini, torpağın oyanışını xəbər verir. Ölkəmizin bütün kənd və şəhərlərində bu bayram xalqımız tərəfindən xüsusi sevinc və təntənə ilə qeyd olunur. Tarixi 5000 ilə dayanan bu bayramın özünəməxsus ənənələri - səməni cücərdilməsi, çərəzlərlə xonçaların bəzədilməsi, müxtəlif personajların iştirakı ilə tamaşaların hazırlanması insanların əhval-ruhiyyəsini yüksəltməyə xidmət edir.**



Qidalanma və tibbi ekologiya kafedrasının baş müəllimi Nigar Əliyeva bayramın digər özəlliyi olan müxtəlif şirniyyatlar, çeşidli xörəklər hazırlanması haqqında fikirlərini bizimlə bölüşüb. İlk növbədə bayramda hazırlanan şirniyyatlarla bağlı inanclardan bəhs edərək bildirib ki, bayram şirniyyatları fəslin dəyişməsini, yeni ilin gəlişini, torpağın bərəkətini nümayiş etdirir. Bu mənada, qoğal Günəşin rəmzi, paxlava ulduzların işıltısının, şəkərbura Ayın yeniliyinin, buğdadan hazırlanan qovurğa isə torpağın oyanışının simvoludur.

Onun sözlərinə görə, bayram günlərində orqanizminin sağlamlıq vəziyyətini qoruya bilmək üçün qidaların tərkibi və həddinə diqqət yetirilməlidir: "Belə ki, gün ərzində şirniyyatlarla zəngin rasionun mövcud olması əsas verir ki, karbohidrat mənbəyi olan un məmulatlarından yüksək miqdarda istifadəyə nəzarət edək. Gün ərzində yeyiləcək şirniyyatların tərkibində olan şəkər tozunun da miqdarı nəzərə alınmalıdır. O cümlədən, həm müxtəlif çeşidli yağlı və ədviyyatlı xörəklərin rasionumuza daxil olması, eyni zamanda şirniyyatların çeşidinin çoxluğu orqanizmin artıq yüklənməsinə və nəticədə ürək-qan damar sisteminin pozulmasına, həzm sistemində patologiyası olan insanların xəstəliklərinin kəskinləşməsinə, bağırsaq mikroflorasının pozulmasına və s. xoşagəlməz halların baş verməsinə gətirib çıxarır. Bunları nəzərə alaraq gün ərzində xörəklərin və şirniyyatların istifadə vaxtı və ara məsafəsi gözlənilməlidir. Bəzən insanlar "əşi, bayramdı" deyib, qidalanma mədəniyyətini arxa plana keçirirlər. Lakin unutmaq olmaz ki, hər bir qida məhsulu, o cümlədən şirniyyatlar orqanizm üçün kalori mənbəyidir".

N.Əliyeva bildirib ki, qidalanmada yol verilən hər bir norma pozuntusu şəkərli diabetin, qan təzyiqinin, ürək-qan damar sistemi xəstəliklərinin yaranmasına və ya xəstəliklərin kəskinləşməsinə, eyni zamanda infeksiyalara tutulma riskinin artmasına səbəb ola bilər. Nəzərə almaq lazımdır ki, xüsusilə bayram günlərində qida rasionunda şirniyyatın, kalorili qidaların qəbulunun artması bir sıra pozğunluqlar doğura bilər: piylənmə, şəkərli diabet, immun sistemin zəifləməsi, allergik reaksiyaların yaranması, tənəffüs sistemində çatışmazlıqlar doğura bilər. Şəkərli diabetdən əziyyət çəkən insanlar xüsusilə diqqətli olmalıdır.

Azərbaycan milli mətbəxinin kalorili və dadlı qidalarla zənginliyini, hər bir bölgəmizin özünəməxsus qidaları olduğunu xatırladan mütəxəssis, yağlı-zülallı yeməklərin qəbulunda ehtiyatlı olmağı və nisbətən yüngül yeməklərə üstünlük verməyi məsləhət görüb.

**ATU-nun Biokimya kafedrasının iclası keçirilib. İclası giriş sözü ilə açan İctimai səhiyyə fakültəsinin dekanı, dosent Qalina Qəniyeva bildirib ki, bu günlərdə "Təbib" qəzetində Biokimya kafedrasına müdir seçilmək üçün müsabiqə elan edilib. O vurğulayıb ki, bu yığıncaqda professor Gülnarə Əzizovanın həmin müsabiqədə iştirak edərək yenidən bu vəzifəyə seçilməsi üçün etdiyi müraciət müzakirəyə çıxarılıb.**

# Biokimya kafedrasına müdir seçkisi olub



Bundan sonra professor G.Əzizova bu vəzifədə işlədiyi müddət ərzində kafedrada həyata keçirilən bir sıra yeniliklər, tədris işinin hazırkı vəziyyəti, eləcə də özünün elmi-pedaqoji fəaliyyəti barədə məlumat verib və gələcək platformasını diqqətə çatdırıb.

Toplantıda çıxış edən kafedranın məsləhətçi professoru Arif Əfəndiyev, dosentlər Akif Qarayev, Akif Hacıyev və başqaları kafedranın hazırkı müdiri, professor G.Əzizovanın peşəkar fəaliyyətindən bəhs edərək, onun bu vəzifənin öhdəsindən uğurla gəldiyini, kafedra əməkdaşlarının etimadını qazandığını və kollektivdə xoş münasibət yaratdığını söyləyiblər. Natiqlər, həmçinin onun elmi-pedaqoji keyfiyyətlərini yüksək qiymətləndirib və yenidən bu vəzifəyə seçilməsini dəstəkləyiblər. Onlar çıxışlarında bildiriblər ki, Gülnarə xanımın kafedrada yaratdığı nizam-intizam, eləcə də hamıya örnək olan müsbət fəaliyyəti əməkdaşların üreyincədir.

Sonra professor G.Əzizovanın bu vəzifəyə namizədliyi irəli sürülüb. Açıq səsvermə yolu ilə kafedranın 48 nəfər əməkdaşı yekdilliklə Gülnarə xanımın lehinə səs verib. Bu nəticə nəzərə alınmaqla onun yenidən Biokimya kafedrasına müdir seçilməsi İctimai səhiyyə fakültəsinin Elmi Şurasına tövsiyə edilib.

# İnsan bədəni 40 trilyon "elektrik batareyası"ndan ibarətdir

## Dosent Nəzakət Kərimli: Yaxın gələcəkdə bioelektrik kodun qırılması çox ciddi elmi məsələlərdən biridir

**Son vaxtlar bir çox insanlar "elektrik vurması" ilə üzləşir. Hara toxunuruqsa, bizi sanki yüngül elektrik cərəyanı vurur. Hətta bəziləri bunu daha kəskin şəkildə hiss edir. Bəs bu "elektrikvurma"nın səbəbi nədir, nədən yaranır?**

"Təbib" qəzetinin bu suallarına ATU-nun Tibbi və bioloji fizika kafedrasının dosenti Nəzakət Kərimli aydınlıq gətirib: "Bizi əhatə edən hər nə varsa - istər canlı, istərsə də cansız varlıqlar gözlə görünməyən hissəciklərdən - neytral atomlardan təşkil olunub. Əgər atomların neytrallığı hər hansı səbəbdən pozularsa, onda sistem yüklənmiş olacaq. Bu isə mənfi və ya müsbət yüklərin artıqlığından irəli gəlir. Elektrostatik sahəyə malik belə cisimlər digər əks yüklü sistemlə qarşılıqlı təsirdə olduqda, yəni ona yaxınlaşdıqda, qısa müddətli cərəyan (sanki qığılcım) hiss edir ki, bu da boşalma nəticəsində sistemin neytral, daha dayanıqlı hala qayıtması üçün baş verir. Elektrostatik sahələrin yaranma səbəblərindən biri kimi sintetik materialdan hazırlanmış geyimləri misal göstərmək olar. Belə geyimlər dayanıqlı quruluşa malik təbii materiallarla müqayisədə xarici mühitin parametrlərindən asılı olaraq daha rahat elektriklənir və daha böyük elektrostatik sahəyə malik olur. Həmçinin qış mövsümündə səbəbi çox statik şokun yaranma səbəbi kimi, hava qatında rütubətin azalmasını da göstərə bilərik. Ona görə də əlavə yüklənməni azaltmaq üçün sudan istifadə etmək yüksək təsir effektinə malikdir".

Onun sözlərinə görə, bioelektrik sahələr insanın əsas varolma səbəblərindəndir. Elektrik sahələri hər yerdə, hətta insan bədənində də mövcuddur. Elektrik hadisələri isə həyatın özü qədər qədim olan proseslər sırasındadır: "İnsan öz mahiyyəti etibarilə elektrik strukturlu varlıqlara aid oluna bilər. Bu bizim bildiyimiz sabit cərəyan mənbəyi (batareya) və ya elektrik cihazlarını



işlədən dəyişən cərəyan mənbəyi deyil. Sadaladığımız elektrik cərəyanları mənfi yüklü hissəciklərin, yəni elektronların nizamlı hərəkəti nəticəsində baş verir. İnsan orqanizmi isə tamamilə fərqli versiyada baş verən bioelektrik hadisələri əsasında fəaliyyət göstərir. Belə proseslərdə cərəyan əsasən müsbət yüklü ionların - natrium, kalium və kalsiumun nizamlı hərəkəti hesabına yaranır".

N.Kərimli əlavə edib ki, insan bədənindəki 40 trilyon hüceyrənin hər biri ayrılıqda aşağı gərginliyə malik kiçik elektrik batareyalarıdır: "Sinir impulsu sürətlə sinir lifi boyunca yayılarkən neyrondakı kanallar açılır və bu kanallardan milyonlarla ion daşınır. Belə kütləvi yük miqrasiyası hesabına yaranan elektrik sahəsinin intensivliyi təqribən 1 V/m olur. Bu isə masştabca, bütöv bir ildırımın uzadılmış bir əldən digərinə ötürülməsinə ekvivalent hadisədir. Çəkilən misal insan bədənində fəaliyyət göstərən hər bir neyronun işinin önəmliliyini göz önünə gətirir. Məhz bu yolla beynin daxilində və onunla digər orqanlar arasında bütün siqnalların ötürülməsi baş verir. Bu isə insanın düşünmə, hərəkət, nitq və s. qabiliyyətləri, eləcə də insan bədəninin zədələndikdə ağrı hiss etməsi, yaralanan dərinin sağalması və digər hadisələrin izahında fundamental əhəmiyyətə malikdir.

Bioelektrik proseslərin nəticəsidir ki, insan turş və şirini differensasiya edə bilir və nə zaman susuzladığını anlayır. Ancaq bioelektrik proseslərin işi təkcə sinir sistemi ilə məhdudlaşmır. Son on illiklərdə məlum olub ki, elektrik siqnalları təkcə qəbuledici və idarəedici hüceyrələr tərəfindən deyil, həm də insan bədəninin bütün hüceyrələri tərəfindən istifadə olunur. İnsan dərisinin hər bir hüceyrəsi digər hüceyrələrlə əlaqəyə girərək məxsusi potensiallarının hesabına ümumi bioelektrik sahəsi yaradır. Yəni insanın sümükləri də daxil olmaqla, hətta onun dişinin də hüceyrələri bioelektrik xüsusiyyətlərə malikdir. Ümumiyyətlə, insan orqanları və onların epitel örtükləri də elektrik təbiətlidir və bu siyahıya qan hüceyrələrini də aid etmək olar".

Mütəxəssisin sözlərinə görə, aparılan son tədqiqatlar zamanı aydın olub ki, hətta ana bətnində olan döl tam formalaşana qədər fərqli tezlikli elektrik siqnalları yaradır: "Dünyaya gələcək körpənin ana bətnində inkişafını təmin edən bu elektrik siqnalları, həmçinin insanın ölümünə səbəb olan xərçəng hüceyrələrini də təbii yolla, hüceyrə kommunikasiyası zamanı yanlış siqnalların (fərqli potensialların) söndürülməsi ilə aradan qaldıra bilir. İnsan bədə-



nindəki proseslərin mexaniki və kimyəvi olduğu qədər də elektrik təbiətli olması fikirləri inkişaf etdirilsə, gələcək on ildə bu istiqamətdə böyük nailiyyətlər əldə oluna bilər. Söhbət bioelektrik siqnalların müxtəlif təsirlərini öyrənmək çərçivəsindən çıxıb, bu siqnalların təbiətini öyrənməkdən gedir".

Nəzakət xanım fiziki dəyişikliklərə səbəb ola bilən ion kanallarının quruluş və iş mexanizmini təsvir edən hesablama modellərinin daha dəqiq olması üçün yüksək səviyyəli kompüter proqramlarının vacibliyini vurğulayıb: "Bu modellərdən 10-20 il ərzində təkcə bioloji toxumaları deyil, həm də onların genetik əsasını öyrənmək üçün istifadə olunacağı düşünülür. Başqa sözlə, insanın "elektrom"unun qurulması, sonra isə ondan bioelektrik kodun qırılmasında istifadə olunması həllini tapa biləcək çox ciddi elmi məsələlərdəndir. Nəzərinizə onu da çatdırım ki, bioelektrik sahələrinin öyrənilməsi, nəhayət ki, bu məsələnin həlli nöqtəsinə - yəni, bioelektrik kodun qırılması mərhələsinə yaxınlaşır".

# İdman yarışlarının qalibi olan tələbələr mükafatlandırılıb

**Ali təhsil müəssisələri arasında keçirilmiş idman yarışlarının qalibi olan Azərbaycan Tibb Universiteti tələbələrinin mükafatlandırma mərasimi keçirilib. Mərasimdə Nəsimi rayon İcra Hakimiyyətinin nümayəndələri, rayon Gənclər və idman sektorunun əməkdaşları və tələbələr iştirak ediblər.**



Tədbiri giriş sözü ilə ATU-nun "Təbib" İdman Klubunun sədri Qələndər Aslanov açıb. Onun sözlərinə görə, hər il martın 5-i ölkəmizdə Bədən Tərbiyəsi və İdman Günü kimi qeyd olunur: "Bu günün şərəfinə təşkil olunmuş 8-ci idman yarışı son günlərdə başa çatıb. Bakı Şəhər Gənclər və İdman İdarəsi və Nəsimi rayon Gənclər və idman sektorunun birgə təşkilatçılığı ilə futzal, badminton və stolüstü tennis yarışları keçirildi. Futzal yarışlarında 112 tələbə iştirak edirdi. 2 həftə davam edən yarışlarda Azərbaycan Tibb Universitetinin tələbələri qalib oldular.

Bundan başqa, ali təhsil müəssisələri arasında Universiada keçirilib. Martın 1-4-də keçirilən yarışlarda tələbələrimiz şahmat üzrə yalnız İdman Akademiyasının tələbələrinə məğlub olaraq 2-ci yeri tutdular.

Gənclər və İdman Nazirliyinin və Alpinizm Federasiyasının təşkilatçılığı ilə isə idman dırmanması yarışı keçirildi. Yarışda Ali Hərbi Məktəbin kursantları da iştirak edirdi. Doğrudur, kursantlar yüksək nəticələr göstərdilər. Amma komandaları, əsasnaməyə əsasən natamam olduğu üçün ümumi xal hesabında bizim komandamız 1-ci yerə layiq görüldü. Sevindirici haldır ki, 27-ci dəfədir ATU tələbələri kuboka sahib olur".

Nəsimi rayon Gənclər və idman sektorunun müdiri Yusif Babanlı çıxışında bildirib ki, Azərbaycan dünyada idman ölkəsi kimi tanınır: "Ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra idman sahəsinə diqqət və qayğı artdı. 2005-ci ildən etibarən isə martın 4-ü cənab Prezident İlham Əliyevin sərəncamı ilə Bədən Tərbiyəsi və İdman Günü kimi qeyd olunur".

Ölkəmizdə keçirilən beynəlxalq səviyyəli yarışlar, müxtəlif idman növləri üzrə gənclərimizin əldə etdiyi nailiyyətlərdən söhbət açan Y.Babanlı, ATU-nun qalib tələbələrini təbrik edib.

Nəsimi rayon İH başçısının 1-ci müavini Gülarə Verdiyeva universitetimizin tələbələrinin idman sahəsindəki uğurlarının təsadüfi olmadığını, ATU-da bunun üçün hər cür şərait yaradıldığını deyib: "Azərbaycan Tibb Universitetinin gözəl bir ənənəsi var. Hər il martın 5-i ərəfəsində müxtəlif idman yarışları keçirilir. Bu il də yüksək səviyyədə təşkil olunmuş yarışların fərdi və komanda qaliblərini təbrik etməkdən məmnunam".

Tədbirin sonunda ATU-nun prorektoru Tağı Əhmədov, o cümlədən Yusif Babanlı və Gülarə Verdiyeva qaliblərə mükafatları təqdim edib, idmançı tələbələrimizlə xatirə şəkli çəkdiriblər.

## Qeyri-travmatik kəllədaxili qansızmalar müzakirəyə çıxarılıb

**ATU-nun Tədris Terapevtik Klinikasında Rezidentura və magistratura şöbəsi Nevrologiya kafedrası ilə birgə seminar keçirib. Bildirilib ki, Kliniki Tibbi Mərkəzin nəzdindəki Uşaq Nevroloji Xəstəxanasının həkimi, uşaq nevroloqu Ülkər Mürsəlova "Yenidoğulmuşlar arasında qeyri-travmatik kəllədaxili qansızmalar" mövzusunda məruzə ilə çıxış edəcək.**



Seminarı açan Nevrologiya kafedrasının müdiri, professor Aytən Məmmədbəyli əvvəlcə məruzəçi haqqında məlumat verib. Diqqətə çatdırıb ki, Ü.Mürsəlova Birləşmiş Ərəb Əmirliyində və Türkiyənin İstanbul şəhərində pediatrik nevrologiya üzrə rotasiya keçib. İsrailin Rambam Hospitalında 3 aylıq təkmilləşmə kursunda olub. Onun "Milli nevrologiya jurnalı"nda və Moskvada "İnternauka" jurnalında elmi məqalələri dərc olunub. Azərbaycan Uşaq Nevroloqlar Assosiasiyasının üzvü, ATU-nun doktorantıdır.

Bundan sonra məruzəçi çıxışında yenidoğulmuşlar arasında qeyri-travmatik kəllədaxili qansızmaların risk faktorları, neonatal itkilər, klassifikasiyalar və görülməsi lazım olan tədbirlərdən bəhs edib. O bildirib ki, vaxtından əvvəl doğulmuş uşaqlar beyində və ətraflarda qanaxmalardan əziyyət çəkirlər: "Beyin qanaması riski həyatın ilk 5 günündə ən yüksək olur. Qanamalar çətin doğuş zamanı və ya yeni doğulmuş körpədə yaranan ağırlaşmalar nəticəsində partlaya bilən qan damarlarının inkişaf etməməsi nəticəsində yaranır. Buna görə də neonatal bölmədə standart prosedur qanaxmanı aşkar etmək üçün bütün vaxtından əvvəl doğulmuş körpələrdə beyin ultrasəs müayinəsini aparmaq çox vacibdir. Bu müayinə müşahidə müddəti ərzində müntəzəm olaraq aparılır".

Diskussiya şəklində aparılan müzakirələrdə Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov dünyanın müxtəlif regionlarında yenidoğulmuşlarda kəllədaxili qansızmaların rastgəlmə tezliyinin kəskin fərqləndiyini bildirib. O deyib ki, Türkiyədə və İranda bu patologiyanın geniş yayılması onun ölkəmizdə də yayılma ehtimalının yüksək olduğunu göstərir.

Professor Aytən Məmmədbəyli yenidoğulmuşlar üçün kəllədaxili qansızmaların çox yüksək dərəcəli ölüm və əlilliyə səbəb olma təhlükələrindən biri olduğunu deyib. Vurğulayıb ki, perinatal patologiyalar arasında bu patologiya kiçik paya sahib olsa da, ölüm səbəbləri arasında onun payı 10 dəfə yüksəkdir.

Fizioterapiya və tibbi reabilitasiya kafedrasının müdiri, dosent Paşa Mehdiyev isə gələcəkdə bu cür körpələrdə olan prediktorlar və onlara müdaxilədə mütləq fizioterapiyaya ehtiyac olduğunu deyib.

**ATU-nun Tədris Cərrahiyyə Klinikasının Klinik diaqnostik laboratoriyası Rezidentura ve magistratura şöbəsi ilə birgə rezidentlər üçün növbəti seminar keçirib.**

## Xərçəngin erkən diaqnostikasında laborator göstəricilərin rolu



Adıçəkilən şöbənin müdir müavini, assistent Namiq Xəlilov bu dəfəki seminarın xərçəngin erkən diaqnostikasında laborator göstəricilərin roluna həsr edildiyini diqqətə çatdırıb və sözü laboratoriyanın şöbə müdiri Elxan Nağıyevə verib. Çıxışında diaqnostikada onkomarkerlərin rolundan bəhs edən məruzəçi TCK laboratoriyasında onkomarkerlerin tam avtomat cihazlarla işlənmə prinsipləri haqqında məlumat verib.

Seminarda laboratoriyanın həkimi, klinik biokimya mütəxəssisi Növrəstə Hacılı bildirib ki, onkomarkerlər müəyyən simptomlar olan xəstələrdə differensial diaqnostikada istifadə edilir və həmçinin xərçəng xəstəliyinin gedişatının təqib edilməsində mühüm rol oynayır: "Onkomarkerlər müxtəlif onkoloji xəstəliklərin diaqnostikasında, aşkarlanmasında və onun növünün müəyyən edilməsində istifadə olunur. Lakin onkomarkerlər kliniki əlamətlər və digər müayinələrlə birlikdə qiymətləndirilməlidir. Bu markerləri qanda, sidikdə, nəcisdə, şiş toxumasında və digər toxumalarda təyin etmək olar. Şiş markerlərinin bir çoxu bizim laboratoriyamizda tətbiq edilir. Qan dövranındakı onkomarkerlər radioimmunoloji, enzimimmunoloji, hüceyrə daxili onkomarkerlər isə immunohistokimyəvi üsüllarla təyin edilir. Onkomarkerler yüksək həssaslığı olan reaktivlərlə ölçülür".

Tədbirin sonunda mövzu ilə bağlı rezidentlərlə diskussiya şəkilində müzakirələr aparılıb, suallar cavablandırılıb.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

**Kafedranın müdiri:**
- II Mamalıq və ginekologiya kafedrası

**Kafedraların professorları:**
- II Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- Onkologiya kafedrası - 1 yer
- III Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların dosentləri:**
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası - 1 yer
- Epidemiologiya və biostatistika kafedrası - 1 yer
- Tibbi-biologiya və genetika kafedrası - 1 yer (0,75 vahid)
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,75 vahid)
- Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrası - 1 yer
- Sitologiya, embriologiya, histologiya kafedrası - 1 yer
- Farmakoqnoziya kafedrası - 1 yer

**Kafedraların assistentləri:**
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası - 1 yer
- III Cərrahi xəstəliklər kafedrası - 1 yer
- I Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Ortopedik stomatologiya kafedrası - 1 yer (0,75 vahid)
- Travmatologiya və ortopediya kafedrası - 1 yer
- II Daxili xəstəliklər kafedrası - 2 yer (0,75 vahid)
- I Daxili xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- II Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- Psixiatriya kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların baş müəllimləri:**
- Tibbi-biologiya və genetika kafedrası - 1 yer
- Tibbi-biologiya və genetika kafedrası - 1 yer (0,75 vahid)
- Patoloji fiziologiya kafedrası - 1 yer (0,75 vahid)

**Kafedranın müəllimi:**
- Xarici dillər kafedrası - 1 yer (0,75 vahid)

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**
**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi, 14**
**Telefon: 597-10-08**

## Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqi.
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifədə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski (əgər bal-reytinq cədvəli üzrə qiymətləndirilmə zamanı təqdim edilməyibsə).
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomları və elmi ad attestatlarının surəti.
10. "Pedaqoji peşəkarlığın artırılması" mövzusunda təlimlərdə iştirakı barədə sertifikat.

**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.**

## Allah rəhmət eləsin!

Azərbaycan Tibb Universitetinin rektorluğu və kollektivi universitetin müəllimi, həkim-nevropatoloq

**İsa Alışanovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Epidemiologiya və biostatistika, Tibbi mikrobiologiya və immunologiya kafedraları və "Təbib" qəzetinin əməkdaşları Epidemiologiya və biostatistika kafedrasının müdiri, professor İbadulla Ağayevə qardaşı

**Həmdulla Ağayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ailə təbabəti kadefrasının əməkdaşları kafedranın dosenti Səidə Xanməmmədovaya atası

**Qiyas müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ailə təbabəti kafedrasının əməkdaşları kafedranın assistenti Yeganə Heydərovaya bacısı

**Təranə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Farmakologiya kafedrasının əməkdaşları kafedranın baş müəllimi İlqar Tahirova qardaşı

**Şamil Tahirovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının kollektivi kafedranın assistenti, Aynurə xanıma qardaşı

**Anarın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Uşaq cərrahlığı kafedrasının əməkdaşları kafedranın müdiri, professor Ramiz Poluxova qaynatası

**Əli müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

II Uşaq xəstəlikləri kafedrasının əməkdaşları kafedranın dosenti Aynur Poluxovaya atası

**Əli Poluxovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

II Uşaq xəstəlikləri kafedrasının əməkdaşları kafedranın dosenti Tahirə Pənahovaya atası

**Tahir Pənahovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

II Uşaq xəstəlikləri kafedrasının əməkdaşları kafedranın dosenti Fatimə Seyidbəyovaya anası

**Leyla Seyidbəyovanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0005
Sayı 800